# “Sabahın alimləri” VI Respublika Müsabiqəsinə start verilib

## Üç qalib layihənin müəllifi ABŞ-a gedəcək

**”Təhsil sahəsində aparılan islahatlar gənclərin müasir düşüncə tərzinin formalaşmasına, onların tədqiqatyönlü fəaliyyətə cəlb edilməsinə, tədqiqat vərdişlərinin formalaşmasına, elmə maraqlarının artmasına istiqamətlənib”. ”Sabahın alimləri” VI Respublika Müsabiqəsinin açılış mərasimində səslənən bu fikirlər artıq ənənəyə çevrilən müsabiqəyə marağın ildən-ilə artmasına diqqət çəkdi.**

Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və ”İntel” şirkətinin təşkilatçılığı ilə keçirilən müsabiqənin hər il ”Beynəlxalq elm və mühəndislik” layihəsi çərçivəsində keçirildiyi qeyd edildi.

Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov müsabiqədə iştirak edən şagirdlərin təkcə Bakı və Naxçıvan şəhərlərini deyil, ölkəmizin bütün rayon və kənd məktəblərini əhatə etdiyini söylədi. Belə ki, 2011-ci ildə təşkil olunan respublika müsabiqəsində 71 şagird iştirak etmişdisə, 2011-ci ildən başlayaraq müsabiqənin sərhədləri daha da genişlənib və iştirakçıların sayı artıb: ”Məhz bu marağın nəticəsidir ki, bu gün keçirilən müsabiqəyə ölkənin 13 şəhər və rayonunun 59 ümumtəhsil məktəblərində təhsil alan 202 şagird 125 elmi layihə ilə iştirak edir”.

Təhsil naziri Mikayıl Cabbarov ”Sabahın alimləri” müsabiqəsinin məqsədinin yuxarı sinif şagirdlərinə tədqiqat aparmaq, öz elmi nailiyyətlərini nümayiş etdirmək imkanı yaratmaq, elmə gələn şagirdlərin sayını artırmaq və onların fəaliyyətini stimullaşdırmaq olduğunu qeyd etdi: ”Məqsəd həm də, gənclərin arasından hər il ABŞ-da keçirilən İntel İSEF- Beynəlxalq Elm və Mühəndislik Sərgisində iştirak edəcək namizədləri müəyyənləşdirməkdir”. Ötən il ümumtəhsil məktəblərini qızıl və gümüş medalla bitirən 158 məzundan 38 nəfərinin son dörd ildə keçirilən ”Sabahın alimləri” müsabiqəsinin qalibləri və ya iştirakçıları olduğunu bildirən nazir hazırda onların Azərbaycanın və xarici ölkələrin universitetlərində təhsil aldıqlarını söylədi: ”Sabahın alimləri” müsabiqəsi ali məktəblərdə keçirilən ”Sabah qrupları” layihəsi ilə uzlaşır. Bu gün müsabiqələrdə iştirak edən gənclərin sabah həmin qruplarda yer alması ehtimalı yüksəkdir. Ümid edirik ki, məhz bu gənclər gələcəyin alimləri, yaradıcıları olacaqlar”. Nazir 2012-ci ildən keçirilən müsabiqəyə bu günədək 730 nəfər şagirdin qatıldığını, onlardan 30-un Intel İSEF-də iştirak etmək hüququ qazandığını qeyd edərək, yarışmaya ölkə miqyasında marağın get-gedə artdığını dedi: ”Ümid edirik ki, şagirdlər beynəlxalq müsabiqələrdə daha böyük nəticələr əldə edəcəklər. Müsabiqədə iştirak edən şagirdlərin sonrakı nailiyyətləri nazirlik tərəfindən təhlil edilir. Müəyyənləşdirilib ki, tədqiqatlarla məşğul olan şagirdlər təhsildə də böyük uğurlar qazanırlar”.

Elm və təhsilin birgə vəhdətinin zəruriliyini vurğulayan AMEA-nın prezidenti Akif Əlizadə elm yoluna gənclərin üz tutmasının vacibliyini qeyd etdi: ”Elm gənclərindir. Zirvələri fəth etmək gəncliyin mövqeyidir”. AMEA-da elm müəssisələrinin sayının 40-dan artıq olduğunu söyləyən akademik, gəncləri həmin müəssisələrdə çalışmağa dəvət etdi: ”AMEA-da magistratura pilləsini yarada bilmişik. Bakalavriat pilləsini bitirdikdən sonra magistraturada sizi görməyə şad olarıq”. Elm yoluna qədəm qoyan gənclərin sayının get-gedə artacağına əminliyini gizlətməyən AMEA prezidenti bildirdi ki, müsabiqələrdə əsas məqsəd qalib olmaq deyil, gələcək elm yoluna qədəm qoymaqdır: ”Kiçik bir uğur qazansanız belə bu, sizi elm yoluna çıxaracaq”. Akademik gənclərin Azərbaycan elmini beynəlxalq aləmdə təmsil edə biləcəyinə inandığını da söylədi.

Hər bir Azərbaycan vətəndaşının təhsilin inkişafına töhfə verməsinin zəruri olduğunu bildirən Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, millət vəkili Səttar Mehbalıyev müsabiqənin elm yoluna üz tutanlara öz töhfələrini verə biləcəyini qeyd etdi: ”Təşkilat komitəsinin əsas vəzifəsi gənclərə elmi işlərini inkişaf etdirmək üçün tədqiqat imkanları yaratmaqdır. Hər dövlətin inkişafı onun iqtisadi göstəriciləri ilə bağlıdır. Bu gün azərbaycanlı gənclər xaricdə təhsil alır və vətənə qayıdaraq ölkənin iqtisadi inkişafına töhfələrini verirlər. İnanıram ki, həmin gənclərin arasından gələcəkdə ölkənin böyük alimləri yetişəcək”.

Artıq ənənəyə çevrilən müsabiqənin gəncləri elmə həvəsləndirdiyini qeyd edən gənclər və idman nazirinin müavini İntiqam Babayev təhsil sahəsini bütün dövlət qurumlarının əl-ələ verərək fəaliyyət göstərdiyi istiqamət adlandırdı: ”Məhz bilik hər bir millətin tükənməz mənbəyidir. Biliyə istinad edərək ölkələrin iqtisadiyyatı inkişaf edir”.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədov elm yoluna üz tutan gənclərin bir araya gəlməsini nəsillərin dialoqu kimi dəyərləndirdi: ”Əsas olan gənclərin komandada bir kollektivdə işləmək bacarığı və öz nailiyyətlərini sərgiləmək istəkləridir. Mən gəncləri Bilik Fondu ilə əməkdaşlığa dəvət edirəm”.

Riyaziyyat, fizika, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya, mühəndislik, kompüter elmləri üzrə keçirilən ”Sabahın alimləri” müsabiqəsinin qaliblərinə təşkilatçılar tərəfindən pul mükafatı, diplom, medal və hədiyyələr təqdim olunacaq. Üç qalib layihənin müəllifi bu ilin may ayında ABŞ-da keçiriləcək İntel İSEF-də iştirak etmək imkanı qazanacaq.

**Təranə Məhərrəmova**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***